# Beynəlxalq Valyuta Fondu haqqında məlumat

**Ümumi məlumat.** Beynəlxalq Valyuta Fondu (BVF) 1944-cü ilin 1-22 iyul tarixlərində ABŞ-ın Bretton-Vuds qəsəbəsində (Nyu-Hempşir ştatı) təşkil olunmuş BMT-nin Monetar və Maliyyə Konfransı nəticəsində qəbul edilən Bretton-Vuds Sazişində əldə edilmiş razılığa əsasən 1945-ci il 27 dekabr tarixində təsis olunmuşdur. BVF üzv dövlətlər arasında valyuta-kredit münasibətlərini tənzimləyən və onlara tədiyyə balansının kəsiri nəticəsində yaranan çətinliklərin aradan qaldırılması üçün qısa və orta müddətli kreditlər təqdim edilməsi yolu ilə maliyyə yardımı edən hökumətlərarası təşkilatdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış qurumu statusuna malik BVF praktiki olaraq dünya valyuta sisteminin institusional əsasını təşkil edir. Hazırda BVF-nin 191 üzvü vardır. Fondun mənzil qərargahı ABŞ-nin Vaşinqton şəhərində yerləşir.

1969-cu ildən etibarən Bankın hesablaşma vahidi beş komponentli valyuta olan SDR-dır (Special Drawing Right). SDR səbətinə ABŞ dolları, avro, funt sterlinq, Çin renminbisi və Yaponiya yeni daxildir. Fondun ümumi nizamnamə kapitalı və ya kvotaları dəyəri 476,4 mlrd. SDR[1] təşkil edir. BVF-nin ən çox kvota payına malik səhmdarları (04.09.2025-ci il tarixinə) ABŞ (17,42%), Yaponiya (6,47%), Çin (6,40%), Almaniya (5,59%), Birləşmiş Krallıq (4,23%) və Fransadır (4,23%).

Kvotalar BVF-nin maliyyə resurslarının əsasını təşkil edir və hər bir üzv ölkənin kvotası onun BVF qarşısında maliyyə öhdəliyinin maksimal həcmini, səs hüququnu (səslərin sayını), həmçinin BVF-dən cəlb oluna biləcək maliyyə resurslarının limitini müəyyən edir. Məsələn, “Stand-by” və Genişləndirilmiş Kreditləşdirmə Mexanizmi (EFF) razılaşmaları üzrə üzv ölkə Fonddan illik öz kvotasının 200%-i, kumulyativ əsasla isə 600%-i həcmində borc götürə bilər. İstisna hallarda verilən borcun həcmi daha da artırıla bilər. Hər bir üzv dövlətin səsvermə hüququ BVF-də ümumi səslərin (5.041.052) 5,502 faizinin 191 üzv ölkə arasında bərabər bölünməsi ilə əldə edilən baza səsin (04.09.2025-ci il tarixinə baza səsi 1452 səs təşkil edir) və öz kvotasında hər 100 min SDR payı üçün formalaşan daha bir səsin toplanması düsturu ilə hesablanır.

2010-cu il 15 dekabr tarixində Rəhbərlər Şurası tərəfindən BVF-də kvotaların artırılması və İcraçı Direktorlar Şurasında islahatlarla bağlı 66-2 nömrəli Qərar qəbul edilmişdir. Qərarda kvotaların 238,4 mlrd. SDR-dan 476,8 mlrd. SDR-a qaldırılması və artırılmış kvotaların üzv dövlətlər arasında bölüşdürülməsi, eləcə də “BVF haqqında Saziş”də əks olunmuş “təyin edilən icraçı direktorlar” kateqoriyasının ləğv edilməsi və bütün icraçı direktorların seçki yolu ilə seçilməsi məqsədilə bu Sazişə düzəlişlər edilməsi və digər məsələlər öz əksini tapmışdır. Fondun İcra Şurasındakı islahatlara dair təklif olunan bu dəyişikliklər ölkəmiz tərəfindən Azərbaycan Respublikasının 2014-cü il 30 may tarixli 967-IVQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

Hazırda Fonda üzv dövlətlərinin kvotaları və səsvermə hüququ 2010-cu il 15 dekabr tarixində yekunlaşmış və 2016-cı il 26 yanvar tarixində qüvvəyə minmiş “Kvotalara 14-cü Ümumi Baxış” (The 14th General Review of Quotas) əsasında müəyyən olunur. Rəhbərlər Şurasının 2020-ci il 7 fevral tarixli Qərarına əsasən Fondun “Kvotalara 15-ci Ümumi Baxış”ı yekunlaşmış və üzv dövlətlərin kvota paylarının sabit saxlanılması qərara alınmışdır. 2023-cü ilin 15 dekabr tarixində “Kvotalara 16-cı Ümumi Baxış” yekunlaşmış, beləliklə, Fonda üzv ölkələrin kvotalarının 50% (və ya 238,6 mlrd. SDR) artırılması ilə bağlı qərar qəbul edilmişdir. Qərara əsasən ölkəmiz mövcud payını 391,7 mln. SDR-dan 587,6 mln. SDR-dək artırmaq, yəni əlavə 195,9 mln. SDR dəyərində kvotaya sahib olmaq imkanı əldə edir.

Likvidlik problemi olan ölkələrin ehtiyaclarının qarşılanmasına, dünya iqtisadiyyatının dayanıqlılığının və sabitliyinin gücləndirilməsinə, böhranlara qarşı çevik mübarizə tədbirlərinin həyata keçirilməsinə, eləcə də pandemiyanın uzunmüddətli iqtisadi təsirlərinin azaldılmasına dəstək məqsədilə BVF tərəfindən indiyədək ümumilikdə birbaşa yenidən kreditləşmə riski (immediate rollover risk) daşımayan və qlobal inflyasiya təzyiqi yaratmayan 660,7 mlrd. SDR[2] (879,0 mlrd. ABŞ dolları ekvivalentində), o cümlədən ölkəmiz üçün 529,0 mln. SDR (704,0 mln. ABŞ dolları ekvivalentində) məbləğində ayırmalar (SDR allocation) həyata keçirilmişdir.

[1] https://www.imf.org/en/About/executive-board/members-quotas
[2] https://www.imf.org/en/Topics/special-drawing-right/-/media/Files/Topics/SDR/sdr-allocations.ashx

BVF tərəfindən 2009-cu ildə qlobal iqtisadi böhrana cavab tədbirləri olaraq 182,6 mlrd. SDR məbləğində ümumi və xüsusi ayırma[3] həyata keçirilmiş və Azərbaycana onun kvotasının (həmin dövr üzrə 160,9 mln. SDR) 74,1309799813%-i həcmində 119,3 mln. SDR ümumi və 34,3 mln. SDR xüsusi ayırma olmaqla, cəmi 153,6 mln. SDR ayrılmışdır.

BVF-nin hesablamalarına əsasən COVID-19 pandemiyası ilə əlaqədar 2021-2025-ci illərdə ehtiyat aktivlərinə uzunmüddətli qlobal ehtiyac təxminən 1,1-1,9 trilyon ABŞ dolları təşkil edəcəkdir ki, “World Economic Outlook”un 2021-ci il aprel tarixli hesabatına əsasən 2025-ci ilədək üzv ölkələr öz imkanları hesabına bu ehtiyacın yalnız 0,5-0,6 trilyon ABŞ dolları təşkil edən hissəsini qarşılamaq imkanına malikdirlər. Bununla əlaqədar olaraq, Rəhbərlər Şurasının 2021-ci il 2 avqust tarixində təsdiq edilmiş Qərarına əsasən üzv ölkələrə, o cümlədən Azərbaycan Respublikasına bir tranşla təqribən 456,5 mlrd. SDR ayrılmışdır.[4] Bununla ölkəmizin BVF-də mövcud ehtiyat aktivləri[5] təqribən 375,4 mln. SDR artaraq 471,1 mln. SDR təşkil etmişdir (23.08.2021-ci il tarixinə).

**Təşkilati strukturu.** BVF-nin idarəetmə strukturu Rəhbərlər Şurası, Beynəlxalq Valyuta və Maliyyə Komitəsi (BVMK), İnkişaf Komitəsi və İcraiyyə Şurasından ibarətdir.

Rəhbərlər Şurası[6] BVF-nin ali idarəetmə orqanıdır. Şurada hər üzv ölkə rəhbər və onun müavini ilə təmsil olunur. Adətən, rəhbər vəzifəsinə üzv ölkənin maliyyə naziri və ya mərkəzi bankın sədri seçilir. Rəhbərlər Şurasında BVF-nin fəaliyyətini əhatə edən əsas məsələlərə – yeni üzv ölkələrin qəbul olunması və üzvlükdən çıxarılması, üzv ölkələrin Fondun nizamnamə kapitalında iştirak dərəcəsinə yenidən baxılması, kvotaların artırılması, icraçı direktorların seçilməsi, “BVF haqqında Saziş”ə dəyişikliklərin edilməsi və digər məsələrə baxılır. Rəhbərlər Şurasının görüşü ildə bir dəfə keçirilir. Zərurət olarsa, əlavə görüşlər də təşkil oluna bilər.

Fondun təşkilatı strukturunda xüsusi rolu BVMK[7] oynayır. Komitə 25 üzvdən ibarətdir və onlar ildə iki dəfə görüş keçirmək məqsədilə toplaşırlar. Bu komitə məsləhətçi funksiyasını daşıyır və qərarvermə hüququna malik deyil.

İnkişaf Komitəsinin[8] də 25 üzvü var (əsasən maliyyə və inkişaf nazirləri) və inkişaf etməkdə olan ölkələrdə inkişaf məsələləri ilə bağlı BVF və Dünya Bankının Rəhbərlər Şurasına məsləhətlər verir.

Bundan əlavə İcraiyyə Şurası[9] da mövcuddur ki, o da BVF-nin gündəlik fəaliyyətini həyata keçirir. Şura 191 üzv ölkəni təmsil edən 25 icraçı direktordan ibarətdir. İcraiyyə Şurası 5 il müddətinə icraçı direktoru seçir. İcraçı direktor Fondun işçi heyətinə başçılıq edir. 2019-cu ildən bu vəzifəni xanım Kristalina Georgiyeva icra edir. ABŞ, Çin və Yaponiya kimi böyük iqtisadiyyata malik ölkələr Şurada tək təmsil olunurlar. Əksər ölkələr isə 4 və daha çox ölkəni təmsil edən qruplarda birləşiblər.

**BVF və Azərbaycan.** Azərbaycan Respublikası BVF-yə 1992-ci il 18 sentyabr tarixində üzv qəbul olunmuşdur. Müstəqilliyimizin ilk günlərində Azərbaycanda mövcud olan ağır iqtisadi durum nəzərə alınaraq, BVF ilə əldə olunmuş razılaşma əsasında, Azərbaycan Respublikasının Mərkəzi Bankında BVF üçün balans hesabı açılmış və bu hesabda Azərbaycan Respublikası Maliyyə Nazirliyinin buraxdığı 78,0 mln. SDR-ın manat ekvivalentində xəzinə qiymətli kağızları (veksellər) yerləşdirilmişdir. Ölkəmizin kvotası 26 fevral 1993-cü ildə 117 mln. SDR-a, 25 yanvar 1999-cu ildə 160,9 mln. SDR-a, 25 fevral 2016-cı ildə isə 391,7 mln. SDR-a (0,08%) qaldırılmışdır. Hal-hazırda ölkəmiz BVF-də 5.369 səsə malikdir ki, bu da ümumi səslərin 0,11 %-ni təşkil edir.

Azərbaycan BVF-də digər 9 ölkə (İsveçrə, Polşa, Lixtenşteyn, Serbiya, Tacikistan, Türkmənistan, Qırğız Respublikası, Qazaxıstan və Özbəkistan) ilə birlikdə hazırda Polşanın rəhbərlik etdiyi seçki qrupunda[10] yer alır. Bu qrupa Polşadan olan icraçı direktor Patrik Loşevski rəhbərlik edir. Onun əvəzedicisi isə İsveçrədən olan Kristof Baumann-Kestendir.

---

[3] https://www.imf.org/external/np/tre/sdr/proposal/2009/0709.htm
[4] https://www.imf.org/en/Topics/special-drawing-right/2021-SDR-Allocation
[5] https://www.imf.org/external/np/fin/tad/exfin2.aspx?memberKey1=51&date1key=2099-12-31
[6] https://www.imf.org/en/About/executive-board/members-quotas
[7] https://www.imf.org/en/About/Factsheets/A-Guide-to-Committees-Groups-and-Clubs
[8] https://www.imf.org/en/About/Factsheets/A-Guide-to-Committees-Groups-and-Clubs
[9] https://www.imf.org/en/About/executive-board/eds-voting-power
[10] https://www.imf.org/en/About/executive-board/eds-voting-power

Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 avqust tarixli 144 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının maliyyə naziri və Azərbaycan Respublikasının Mərkəzi Bankının sədri BVF-nin Rəhbərlər Şurasında Azərbaycan Respublikası üzrə müvafiq olaraq rəhbər və rəhbərin müavini (alternativ rəhbər) təyin edilmişlər.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin ilk illərində ölkəmizin BVF ilə əməkdaşlığı 306,85 mln. SDR məbləğində kreditlərlə dəstəklənən 6 proqram çərçivəsində həyata keçirilmişdir. BVF-nin Azərbaycanla əməkdaşlıq əlaqələri Struktur İslahatları Proqramı (SİP) konteksində qurulmuşdur. Qeyd etmək lazımdır ki, əməkdaşlıq əlaqələrinin ilkin qiymətləndirilməsi dövründə BVF-nin Azərbaycanda həyata keçirdiyi proqramların iqtisadi səmərəsi böyük olmuşdur. Belə ki, 1992–1994-cü illərdə ölkənin üzləşdiyi dərin iqtisadi böhrandan çıxmaq məqsədilə BVF-nin maliyyə dəstəyi ilə aparılmış struktur islahatları proqramı daxili və xarici balansın tarazlaşdırılması və iqtisadi sabitliyin təmin edilməsinə imkan vermişdir.

1995-ci ildən başlayaraq struktur islahatları çərçivəsində aparılmış sərt fiskal və monetar siyasət nəticəsində dövlət büdcəsinin kəsirinin inflyasiya mənbələri hesabına maliyyələşdirilməsinə son qoyulmuş, bu sahədə xarici maliyyə mənbələrinə üstünlük verilmiş və bununla da inflyasiya 1996-cı ildən özünün hiperinflyasiya səviyyəsindən 6%-dən də aşağı səviyyəyə düşmüş, manatın ABŞ dollarına olan məzənnəsi sabitləşmiş və real iqtisadi artıma nail olunmuşdur.

2005-ci ildən BVF ilə əməkdaşlıq “BVF haqqında Saziş”in IV maddəsinə uyğun olaraq ildə bir dəfə məsləhətləşmələr səviyyəsində həyata keçirilir. Sözügedən məsləhətləşmələr zamanı bir qayda olaraq ölkədə makroiqtisadi və maliyyə sektoru üzrə son dəyişikliklər, növbəti illər üzrə inkişaf perspektivləri, mümkün risklər və bu kimi mövzular əhatə olunur. BVF ölkə haqqında valyuta siyasətinin təhlilini aparmaq məqsədi ilə hər il Azərbaycana missiya təşkil edir.

Fondun ən iri səhmdarları olan bir sıra qərb ölkələrinin təşəbbüsü ilə qəbul edilən Direktorlar Şurasının 2018-ci il 6 aprel tarixli qərarına əsasən 2019-cu ildən başlayaraq aparılan məsləhətləşmələr çərçivəsində ölkədə idarəçilik, korrupsiya ilə mübarizə sistemi və təsisatları, həmçinin bunları gücləndirmək üçün görülən tədbirlərin qiymətləndirilməsi də tələb olunur.

Qeyd edilənlərlə yanaşı, müraciət əsasında BVF Azərbaycan Hökumətinə institusional və monetar idarəetmə üzrə potensialın artırılması istiqamətində bir sıra sahələrdə, o cümlədən dövlət xərclərinin idarə olunması, vergi-gömrük siyasəti, mərkəzi bankçılıq, bank nəzarəti, pul siyasəti və statistika sahələrində texniki yardımlar da göstərmişdir. Ölkəmiz makroiqtisadi təhlillər və siyasət, maliyyə proqramlaşdırılması, fiskal siyasət və idarəçilik, mərkəzi bank mühasibatlığı və bank nəzarəti və s. sahələrdə BVF tərəfindən təmin edilmiş təlimlərdən bəhrələnmişdir.

2021-ci ilin 1 fevral tarixində Qazaxıstan Respublikasının Almatı şəhərində BVF və 9 dövlətin (Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğız Respublikası, Monqolustan, Tacikistan, Türkmənistan, Özbəkistan) birgə təşəbbüsü ilə təsis olunmuş BVF-nin Qafqaz və Mərkəzi Asiya ölkələri və Monqolustan üzrə Regional Potensialın İnkişafı Mərkəzi (CCAMTAC)[11] fəaliyyətə başlamışdır. Mərkəzin əsas fəaliyyət istiqamətləri üzv ölkələri makroiqtisadi və maliyyə siyasəti sahələrində məsləhət xidmətləri ilə və bacarıqların inkişaf etdirilməsinə dəstək üzrə texniki yardımlarla təmin etməkdən ibarətdir.

[11] https://ccamtac.imf.org/